# Şəhid ailələri ilə görüş



Azərbaycan Respublikası Milli Məclisinin Deputatı Aqiyə xanım Naxçıvanlı və Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev şəhid ailələri ilə görüş keçirmiş, onları narahat edən problemlərlə maraqlanmışlar. Problemlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid ailələri dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Təlimlərə hazırlıqla bağlı iclas keçirilmişdir

24 may 2023-cü il tarixində Qəbələ Rayon İcra Hakimiyyətində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 28 noyabr 2022-ci il tarixli 127 nömrəli əmri ilə təsdiq edilmiş “ Azərbaycan Respublikasının 2023-cü il üçün mülki müdafiə tədbirləri Planı”nın 1-ci bəndinə uyğun olaraq, 31 may – 02 iyun 2023-cü il tarixlərində Qəbələ rayonunda “İrimiqyaslı fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrin idarə edilməsinin təşkili” mövzusunda kompleks mülki müdafiə təliminə hazırlıqla bağlı iclas keçirilmişdir. İclasda Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin, rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri iştirak etmişlər. İclasda qarşıda duran məsələlər müzakirə edilmiş, aidiyyəti qurumlara müvafiq tapşırıq və tövsiyələr verilmişdir.

# “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyəti” mövzusunda konfrans



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə “Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi fəaliyyəti” mövzusunda konfrans keçirilmişdir. Konfrans iştirakçıları öncə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsinə böyük hörmət və ehtiramlarını bildirmişlər Qəbələ Rayon İcra Hakimiyyətinin, idarə müəssisə və təşkilatların nümayəndələrinin, ziyalıların, ağsaqqalların və rayon ictimaiyyətinin iştirakı ilə



keçirilən konfransda ilk olaraq Mədəniyyət Mərkəzinin foyesində təşkil edilmiş ulu öndər Heydər Əliyevin Qəbələyə səfərlərini, həmçinin, şəxsi həyatını, iştirak etdiyi beynəlxalq toplantıları və dünya liderləri ilə görüşlərini əks etdirən foto-sərgiyə baxış keçirilmişdir. Mədəniyyət Mərkəzinin akt zalında keçirilən konfrans Azərbaycanın Dövlət Himni səslənməsi ilə başlamışdır. Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev konfransda məruzə ilə çıxış edərək ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətindən geniş şəkildə danışmış, Dövlət müstəqilliyimizin möhkəmləndirilməsində misilsiz xidmətləri olmuş, xalqımızın xilaskarı, dahi lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən böyük layihələrdən, iqtisadi islahatlardan, ulu öndərin bölgələrə, o cümlədən Qəbələ rayonuna səfərlərinin əhəmiyyətindən bəhs etmiş, ümummilli liderin təməlini qoyduğu daxili və xarici siyasət kursunun, dövlət quruculuğu konsepsiyasının Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirildiyini və yeni çalarlarla zənginləşdirildiyini diqqətə çatdırmışdır. Sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş “Əsrin adamı 100” sənədli filmi nümayiş olunmuşdur.

# Səyyar qəbullar

Bəşəriyyət ta yarandığı gündən bəri hər bir canlı yaşayış tərzində müəyyən problemlərlə üzləşir. Əlbəttə, hər dövrün özünəməxsus çətinlikləri, həlli vacib məsələləri vardır ki, bunlar insan amilinin həyatı üçün pillə-pillə həll olunur. Zaman irəlilədikcə insanların mədəni-məişət qayğıları, yaşam problemləri artır. Ancaq xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. Ayrı-ayrı insanlar, aid olduğu idarə və müəssisələr, bir sözlə, aidiyyəti təşkilatlar problemli məsələlərin həllində həmişə insanlara yardımçı olurlar.

Hamımıza aydındır ki, rayon rəhbərliyi rayonumuzun şəhər, qəsəbə və kəndlərində sakinlərin həyat tərzi ilə tanışlıq, onları narahat edən problemlərin həll olunması məqsədi ilə tez-tez səyyar qəbullar keçirir. Artıq illərdir ki, bu qəbullar ənənə şəklini almışdır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin may ayından səyyar qəbul Topbağ, Kiçik Əmili, Mirzəbəyli və Tövlə kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.



Topbağ kəndi.





Kiçik Əmili kəndi.



Mirzəbəyli kəndi.



Tövlə kəndi.

**“Qəbələ”**

**Fotolar Səhrab Umuyevindir.**